UOT 327(4/9)
https://doi.org/10.30546/3006-0346.2025.3.87.514

# MƏRKƏZİ ASİYADA TƏHLÜKƏSİZLİK TƏHDİDLƏRİ: REGİONAL ÇAĞIRIŞLAR, GEOSİYASİ TƏSİRLƏR VƏ STRATEJİ CAVABLAR

**NARGIZA JAKBAROVA**
*Bakı Dövlət Universiteti, doktorant*
*E-mail: jakbarovanargiza77@gmail.com*

## ƏFQANISTANDAN GƏLƏN TƏHLÜKƏLƏR

Əfqanıstandakı qeyri-sabitlik uzun illərdir ki, Mərkəzi Asiya regionunun təhlükəsizlik gündəmində prioritet məsələ kimi qalır. Sovet İttifaqının süqutundan sonra yaranmış geosiyasi boşluq, xüsusilə Əfqanıstanla sərhəddə yerləşən dövlətlər üçün ciddi strateji və təhlükəsizlik təhdidlərinə yol açmışdır. Bu regionun təhlükəsizlik arxitekturası, radikal ideologiyaların yayılması, narkotik qaçaqmalçılığı, sərhəd nəzarətinin zəifliyi və regional qeyri-sabitlik kimi çoxşaxəli faktorların təsiri altında formalaşmışdır. 2001-ci ildə ABŞ-ın Əfqanıstana hərbi müdaxiləsi nəticəsində Taliban rejiminin devrilməsi ilə regionda müvəqqəti sabitlik yaransa da, bu vəziyyət uzunmüddətli olmamış, Talibanın sonrakı illərdə yenidən güclənməsi və 2021-ci ildə ABŞ qüvvələrinin tam çıxmasından sonra hakimiyyəti ələ keçirməsi regionda təhlükənin miqyasını kəskin artırmışdır [4, s. 87].

Talibanın yenidən hakimiyyətə gəlməsi, yalnız Əfqanıstan daxilində deyil, bütün Mərkəzi Asiya boyunca radikal dini ideologiyaların genişlənməsi riskini gücləndirmişdir. Xüsusilə İŞİD-in Əfqanıstan qolu kimi tanınan "Xorasan vilayəti" təşkilatının son illərdə aktivləşməsi, region ölkələri üçün ciddi təhlükə mənbəyi olaraq qiymətləndirilir. Bu təşkilat 2021-ci ildən etibarən bir sıra qanlı hücumlara imza atmış, ideoloji təbliğat vasitəsilə Mərkəzi Asiyadan olan gəncləri öz sıralarına cəlb etməyə çalışmışdır. Tacikistan, Özbəkistan və Qırğızıstan kimi ölkələrin vətəndaşları arasında radikallaşma hallarının artması, bu ölkələrin daxili təhlükəsizliyinə birbaşa təhdid yaratmaqdadır. Taliban rejimi bəyanatlarında bu qruplara qarşı olduğunu bildirsə də, faktiki nəzarət imkanlarının məhdudluğu, xüsusilə dağlıq və periferik bölgələrdə bu qrupların sərbəst fəaliyyət göstərməsinə şərait yaradır.

Digər bir strateji problem isə Əfqanıstandan qaynaqlanan narkotik ticarətidir. Əfqanıstan hazırda dünyanın ən böyük qeyri-qanuni afyon istehsalçısı olaraq qalır. Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) 2023-cü il hesabatına əsasən, Talibanın formal şəkildə afyon istehsalını qadağan etməsinə baxmayaraq, faktiki istehsal davam edir və bu maddələrin qaçaq yollarla Mərkəzi Asiya ölkələrinə, oradan isə Rusiya və Avropaya daşınması intensivləşmişdir. Bu vəziyyət təkcə iqtisadi sabitliyi deyil, həm də sosial toxumanı zəiflətməkdədir. Narkotik ticarəti eyni zamanda region ölkələrində korrupsiyanın artmasına, qeyri-formal iqtisadiyyatın genişlənməsinə və təhlükəsizlik strukturlarının zəifləməsinə səbəb olur.

2021-ci ildən sonra regional dövlətlərin Əfqanıstanla bağlı siyasətində də dəyişikliklər müşahidə olunmuşdur. Özbəkistan və Türkmənistan kimi ölkələr Talibanla açıq diplomatik dialoq aparmağa başlamış, iqtisadi və logistik əməkdaşlıq imkanlarını müzakirə etmişdir. Məsələn, Özbəkistan "Məzari-Şərif – Kabil – Peşəvər" dəmir yolu layihəsini reallaşdırmaq üçün Talibanla texniki danışıqlara başlamışdır. Türkmənistan isə "TAPI" (Türkmənistan–Əfqanıstan–Pakistan–Hindistan) qaz kəməri layihəsinin taleyini müəyyənləşdirmək məqsədilə qarşılıqlı əlaqələri intensivləşdirmişdir. Lakin bu layihələrin icrası təhlükəsizlik zəminində hələ də sual altındadır və dayanıqlı nəticələr verməmişdir [6, s. 182].

Eyni zamanda Rusiya və Çin kimi regional güclər bu boşluqdan istifadə edərək təsir dairələrini genişləndirməyə çalışır. Rusiya Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) çərçivəsində sərhəd bölgələrində hərbi təlimləri intensivləşdirmiş, Çin isə "Bir Kəmər – Bir Yol" təşəbbüsünün təhlükəsizlik elementlərini Əfqanıstan kontekstində də gücləndirmişdir. Çin Taliban rejimi ilə təmasları saxlayaraq, əsasən enerji, logistika və mineral ehtiyatlara yönəlik iqtisadi maraqlarını təmin etməyə çalışır.

Ən ciddi təhlükələrdən biri isə xarici münaqişə zonalarından – xüsusilə Suriya, İraq və Əfqanıstandan – qayıdan döyüşçülərin Mərkəzi Asiya ölkələrində terror hüceyrələri formalaşdırmaq potensialıdır. Bu səbəbdən region ölkələri informasiya mübadiləsinin gücləndirilməsi, sərhəd nəzarətinin modernləşdirilməsi, dini radikallaşmanın qarşısının alınması və reinteqrasiya proqramlarının tətbiqi istiqamətində ciddi tədbirlər görməyə başlamışdır. 2023-cü ildə Qazaxıstan və Qırğızıstanda keçirilən birgə təlimlər və təhlükəsizlik forumları bu baxımdan əhəmiyyətli addımlar olmuşdur.

Bütövlükdə, Əfqanıstandan qaynaqlanan təhlükələr Mərkəzi Asiyanın yalnız hərbi və təhlükəsizlik baxımından deyil, həm də sosial və iqtisadi dayanıqlığı baxımından mühüm problemlər yaradır. Bu baxımdan, regional əməkdaşlıq, informasiya təhlükəsizliyi, sərhəd nəzarəti, antiterror tədbirləri və diplomatik dialoqun gücləndirilməsi regionun gələcək sabitliyi üçün əsas strategiyalar kimi çıxış edir.

## TERRORİZM VƏ RADİKALLAŞMA TƏHLÜKƏSİ

Mərkəzi Asiya ölkələrinin üzləşdiyi əsas təhlükələrdən biri xarici terrorçu döyüşçülərin regiona qayıdışı ilə bağlıdır. Bu təhlükənin dərəcəsi, xüsusilə Suriya və İraqda fəaliyyət göstərmiş Mərkəzi Asiya mənşəli sələfi cihadçıların sayının çoxluğu fonunda daha da aktuallaşır. Mövcud məlumatlara əsasən, 2012-ci ildən etibarən İŞİD, Ən-Nusra Cəbhəsi və digər radikal terror təşkilatlarına qoşulanların sayı 4000-dən çox olmuşdur. Bu göstərici Mərkəzi Asiyanı Yaxın Şərqdəki cihadçı hərəkatlara qatılan şəxslərin sayına görə dünyanın aparıcı regionlarından birinə çevirir. Xarici döyüşçülərin qayıdışı isə təkcə hərbi təhdid deyil, həm də ideoloji və sosial təhlükə olaraq qiymətləndirilməlidir [5].

Radikallaşma prosesi bu şəxslərin yalnız iqtisadi yoxsulluq və işsizlik kimi sosial-maddi çatışmazlıqlarla üzləşməsi ilə deyil, eyni zamanda region hökumətlərinin avtoritar idarəçilik modelləri, siyasi plüralizmin məhdudlaşdırılması, korrupsiyanın yayılması, hüquq bərabərsizliyi və dini azadlıqların təzyiqə məruz qalması ilə əlaqələndirilir. Bu amillər radikal ideologiyaların yayılması üçün münbit zəmin yaradır. Döyüş təcrübəsi qazanmış və Yaxın Şərqdəki çoxmillətli cihadçılarla əlaqələr qurmuş şəxslər regiona döndükdə, onlar ekstremist ideyaların daşıyıcısı olaraq çıxış edir, bəzi hallarda isə birbaşa terror aktlarının təşkilində iştirak edirlər. Bu şəxslər hökumətləri devirmək və xilafət qurmaq potensialına malik olmasalar da, yerli miqyasda ictimai təhlükəsizliyi və sosial sabitliyi pozmaq üçün kifayət qədər təhlükə mənbəyidir.

Son illərdə İŞİD-in hərbi baxımdan zəifləməsi və Suriya-İraq bölgəsindəki strukturlarının məhv edilməsi ilə sağ qalan döyüşçülərin bir qismi doğma ölkələrinə geri dönməyə başlamışdır. Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Tacikistan hökumətləri bu şəxslərin ölkəyə dönüşü və potensial təhlükələrinin qarşısını almaq məqsədilə fərqli strategiyalar tətbiq etmişdir. Bəzi ölkələr sərt cəzalandırıcı tədbirlərlə yanaşmanı üstün tutmuş, digərləri isə reabilitasiya və reinteqrasiya proqramları vasitəsilə daha yumşaq yanaşma tətbiq etməyə başlamışdır. Məsələn, Qazaxıstanda həyata keçirilən "Jusan" humanitar əməliyyatı çərçivəsində yüzlərlə qadın və uşaq Suriya və İraqdan geri qaytarılmış və cəmiyyətə inteqrasiya üçün xüsusi proqramlara cəlb olunmuşdur [5].

Lakin yalnız təhlükəsizlik və hüquq-mühafizə tədbirləri ilə bu problemin həlli mümkün deyil. Radikal ideologiyalarla mübarizədə paralel olaraq, sosial bərabərliyin təmin olunması, təhsil imkanlarının artırılması, iqtisadi inkişaf proqramlarının genişləndirilməsi və cəmiyyətin marginallaşdırılmış təbəqələrinin müdafiəsi zəruridir. Hökumətlərin vətəndaş azadlıqlarını məhdudlaşdıran və dini fəallığa qarşı sərt təzyiqlər göstərən siyasətləri əksinə, radikallaşma prosesini daha da dərinləşdirə bilər. Bu baxımdan, repressiv mexanizmlərin yerinə inklüziv və proaktiv təhlükəsizlik siyasəti formalaşdırılmalı, hədəfdə olan gənclərin müsbət sosial modellərlə əhatə olunması təmin edilməlidir.

Regional səviyyədə isə təhlükənin miqyasını nəzərə alaraq, Mərkəzi Asiya ölkələri arasında informasiya və kəşfiyyat mübadiləsi, sərhəd nəzarətinin gücləndirilməsi, birgə antiterror təlimlərinin keçirilməsi və hüquq-mühafizə strukturlarının koordinasiyası artırılmalıdır. Eyni zamanda, regional təhlükəsizlik təşkilatları – o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT), Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) və BMT-nin aidiyyəti strukturları ilə daha sıx əməkdaşlıq zəruridir. Bu çərçivədə regional səviyyədə "returnee fighters" üzrə məlumat bazalarının yaradılması, radikallaşma risklərinə dair erkən xəbərdarlıq sistemlərinin qurulması və müvafiq icmalarla yerli səviyyədə işləyəcək maarifləndirici təşəbbüslərin həyata keçirilməsi vacibdir.

## RUSİYANIN GEOSİYASİ TƏSİRİ

Mərkəzi Asiya ölkələri ilə Rusiya arasındakı münasibətlər uzun illər ərzində qarşılıqlı maraqlar və praqmatizm əsasında formalaşmışdır. Xüsusilə Qazaxıstan və Özbəkistan kimi ölkələr Rusiya ilə münasibətlərində ortaq maraqları önə çəkməyə, maraqların toqquşmasını isə açıq münaqişəyə çevirməməyə diqqət yetirmişlər. Bununla belə, SSRİ-nin dağılmasından sonra yeni milli ideologiyaların formalaşması və siyasi elitaların dəyişməsi fonunda

regionda yaşayan etnik slavyanların, xüsusilə də rusların kütləvi şəkildə Mərkəzi Asiyanı tərk etməsi müşahidə olunmuşdur. Bu axın, sovet dövründə əsasən rusların idarə etdiyi hərbi, sənaye, hüquq və idarəetmə sahələrində yerli kadrların azlığı səbəbilə, yeni müstəqil dövlətlərin iqtisadi və institusional strukturuna mənfi təsir göstərmişdir [1, s. 37].

1990-cı illərdə Rusiya postsovet məkanında nüfuzunu qoruyub saxlamaq iqtidarında deyildi. Bu dövrdə Rusiya əsas diqqətini daxili sosial-iqtisadi və siyasi böhranların həllinə yönəltmişdi. Lakin 2000-ci illərin ortalarından başlayaraq, Vladimir Putinin rəhbərliyi ilə Moskva öz xarici siyasət kursunu dəyişdirmiş və Mərkəzi Asiyanı geosiyasi prioritetlərindən biri kimi yenidən gündəmə gətirmişdir. Rusiya bu regionu hələ də "xüsusi maraq dairəsi" kimi görür və burada öz mövqeyini qorumağa çalışır. Əgər əvvəlki dövrlərdə bu siyasəti həyata keçirmək üçün lazımi maliyyə və diplomatik resurslardan məhrum idisə, neft və qaz ixracından əldə etdiyi gəlirlərlə bu boşluğu doldurmağa nail olmuşdur [6, s. 184]

Mərkəzi Asiya dövlətləri isə müstəqillikdən sonrakı dövrdə çoxvektorlu və balanslı xarici siyasət yürütməyə çalışmış, həm Rusiya, həm Çin, həm də Qərblə paralel əməkdaşlığa can atmışlar. Lakin son illərdə – xüsusən Krımın ilhaqı (2014), Şərqi Ukraynadakı separatizm və 2022-ci ildən başlanan genişmiqyaslı Rusiya-Ukrayna müharibəsi fonunda – Rusiya ilə Qərb arasında dərinləşən qarşıdurma region ölkələrinin manevr imkanlarını xeyli məhdudlaşdırmışdır. Qazaxıstan bu mənada daha həssas vəziyyətdədir. Separatizm risklərinin zəiflədilməsinə yönəlik olaraq paytaxtın Almatıdan Astanaya köçürülməsi və Qazax milli kimliyinin möhkəmləndirilməsi istiqamətində atılan addımlara baxmayaraq, ölkədəki rus azlığının bir hissəsi yeni dövlət ideologiyasını qəbul etməkdə çətinlik çəkir, rus dilinə və rus kimliyinə bağlılıq nümayiş etdirir [2, s. 233].

Rusiyanın Ukraynadakı hərbi əməliyyatları və buna cavab olaraq ABŞ və Avropa İttifaqı tərəfindən tətbiq olunan genişmiqyaslı sanksiyalar, Rusiya ilə sıx inteqrasiya olunmuş Mərkəzi Asiya iqtisadiyyatlarına da dolayısı ilə təsir göstərmişdir. Xüsusilə Avrasiya İqtisadi İttifaqı çərçivəsində Rusiya ilə sıx ticarət əlaqələrinə malik olan Qazaxıstan sanksiyaların təsiri ilə iqtisadi çətinliklər yaşamış, rublun devalvasiyası və ticarət balansındakı pozuntular yerli bazarlarda da hiss olunmuşdur [11, s. 79].

Digər tərəfdən, Moskva Mərkəzi Asiyanı yalnız iqtisadi müstəvidə deyil, həm də siyasi və hərbi cəhətdən öz təsir dairəsində saxlamaq niyyətindədir. KTMT çərçivəsində birgə hərbi təlimlər, təhlükəsizlik əməkdaşlığı və informasiya təhlükəsizliyi sahəsində koordinasiya mexanizmləri Rusiya tərəfindən regionda hərbi-siyasi dominantlıq vasitəsi kimi istifadə olunur. Eyni zamanda, Moskva Mərkəzi Asiya ölkələrinin öz aralarında Rusiyanın iştirakı olmadan reallaşdırmaq istədiyi regional inteqrasiya təşəbbüslərinə şübhə ilə yanaşır və bu cəhdləri zəiflətməyə çalışır. Bu kontekstdə, Rusiyada bəzi siyasi elitaların post-sovet məkanında yeni formada inteqrasiya arzuları – bəzən "SSRİ 2.0" kimi adlandırılan çağırışlar – Mərkəzi Asiyada narahatlıq və həssaslıq doğurur, xüsusilə suverenlik və milli identiklik məsələlərinə dair [6, s. 181].

Bütün bu gərginliklərə baxmayaraq, Rusiya ilə Mərkəzi Asiya arasında qarşılıqlı asılılıq davam edir. Region ölkələri üçün Rusiya həm enerji ixracı, həm miqrasiya axınları, həm də təhlükəsizlik əməkdaşlığı baxımından hələ də strateji partnyordur. Minlərlə Mərkəzi Asiya vətəndaşı Rusiyada işləyir və onların göndərdiyi pul köçürmələri bir çox ölkənin, xüsusilə Tacikistan və Qırğızıstanın iqtisadi sabitliyi üçün mühüm əhəmiyyət kəsb edir [12, s. 69]. Bundan əlavə, beynəlxalq terrorizm, dini ekstremizm, narkotik ticarəti və qanunsuz miqrasiyaya qarşı mübarizədə Rusiya ilə koordinasiyalı fəaliyyət regionun təhlükəsizlik balansı baxımından əvəzsizdir.

Hazırkı geosiyasi konfiqurasiyada Mərkəzi Asiyanın Rusiya ilə əlaqələrini tamamilə kəsməsi nə iqtisadi, nə də təhlükəsizlik baxımından real görünmür. Buna görə də, Mərkəzi Asiya dövlətləri praqmatik siyasət yürüdərək, suverenliklərini qorumaqla yanaşı, Rusiya ilə əməkdaşlıq imkanlarını diqqətlə tarazlaşdırmağa çalışır.

## ÇİNİN ARTAN ROLU VƏ STRATEJİ PLANLARI

Müstəqillik dövrünün ilk illərində Mərkəzi Asiya ölkələrinin Çinə münasibəti dərin tarixi ehtiyatkarlıq və etimadsızlıqla müşayiət olunurdu. Bu münasibətlərin kökündə 18-ci əsrdə Çinin Sincan bölgəsində həyata keçirdiyi hərbi ekspansiya və soyqırımı təcrübələri ilə bağlı kollektiv yaddaş, eləcə də SSRİ ilə Çin arasında sərhəd mübahisələri dayanırdı. Qazaxıstan və digər region ölkələri Çin Xalq Respublikasını potensial təhlükə kimi görür, xüsusilə də Çin ordusunun

genişlənməsi və sərhəd ərazilərindəki qeyri-müəyyənlikləri təhlükə mənbəyi hesab edirdilər [8, s. 81]. Bununla belə, müstəqillik reallıqları, iqtisadi asılılıqlar və təhlükəsizlik çağırışları Mərkəzi Asiyanı Çinlə münasibətləri yenidən dəyərləndirməyə və qarşılıqlı faydalı əməkdaşlıq qurmağa sövq etdi.

Mərkəzi Asiya ölkələri Çinlə əməkdaşlığı çoxvektorlu xarici siyasət çərçivəsində həyata keçirməyə çalışdılar. Bu yanaşma regionun Rusiya və Qərb arasında tarazlıq yaratmaq strategiyasının əsas elementlərindən biri idi. Çinlə qurulan əlaqələr, xüsusilə Sincan uyğur Muxtar Bölgəsindəki türkdilli müsəlman əhalinin separatçı meyilləri ilə əlaqədar olaraq, Çinin Mərkəzi Asiya ölkələrindən siyasi dəstək almaq istəyini də gücləndirmişdir. Pekin bu istiqamətdə diplomatik uğur qazanaraq, region ölkələrinin Uyğur məsələsində neytral və ya Çin yönümlü mövqe tutmasına nail olmuşdur [4, s. 46].

Çinlə Mərkəzi Asiya ölkələri arasında sərhəd mübahisələrinin həlli 1990-cı illərin mühüm diplomatik uğurlarından biri hesab edilir. Lakin bu danışıqlarda Çin diplomatik baxımdan daha üstün mövqe tutmuş və əksər hallarda mübahisəli əraziləri öz xeyrinə əldə etmişdir. Qazaxıstan, Qırğızıstan və Tacikistan müəyyən ərazi güzəştlərinə getsələr də, bu razılaşmalar regionda mümkün hərbi toqquşmaların qarşısının alınması baxımından faydalı hesab edilmişdir. Bununla belə, bu prosesdə su ehtiyatları məsələsinin danışıqlar mövzusu olmaması xüsusilə Qazaxıstan üçün narahatlıq doğurur. Çin transsərhəd çayların yönünü dəyişmək planlarını həyata keçirdiyi halda, bu, Mərkəzi Asiyanın su təhlükəsizliyinə və kənd təsərrüfatı sektoruna ciddi mənfi təsir göstərə bilər [9, s. 586].

Təhlükəsizlik sahəsində əməkdaşlıq əsasən Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində inkişaf etdirilmişdir. Əvvəlcə “Şanxay beşliyi” adı altında sərhədyanı sabitliyi təmin etmək məqsədi ilə formalaşdırılmış bu struktur, zamanla daha geniş təhlükəsizlik gündəmini əhatə edən bir regional təşkilata çevrilmişdir. Çin üçün ŞƏT vasitəsilə region ölkələri ilə kəşfiyyat, antiterror və informasiya təhlükəsizliyi sahələrində əməkdaşlıq imkanlarının genişləndirilməsi strateji əhəmiyyət kəsb edir. Xüsusilə “üç pislik” – separatizm, ekstremizm və terrorizmlə mübarizə Pekinin bu platformadakı əsas prioritetlərindən biridir [7].

2000-ci illərin ortalarında Çin ABŞ-ın regionda hərbi mövcudluğuna qarşı ehtiyatla yanaşsa da, “Lalə İnqilabı” (2005) və Andican hadisələrindən sonra ABŞ-ın nüfuzunun zəifləməsi, Çinə yeni imkanlar yaratdı [3, s. 182]. Çin bu boşluğu həm təhlükəsizlik, həm də iqtisadi layihələr vasitəsilə doldurmağa başladı. Qazaxıstan, Qırğızıstan və Tacikistanla sərhəddə yerləşməsi, Pekinə həm sərhədlərin demarkasiyasında üstünlük qazandırdı, həm də Uyğur məsələsinə dair daxili təhlükəsizlik maraqlarını region hökumətləri ilə koordinasiya etmək fürsəti verdi.

Çin Mərkəzi Asiyada iqtisadi cəhətdən xüsusilə enerji sektoru vasitəsilə möhkəmlənmişdir. Qazaxıstanın neft və qaz resurslarına genişmiqyaslı sərmayələr yatırılmış, enerji infrastrukturu – boru kəmərləri, nəqliyyat dəhlizləri və sənaye zonaları – vasitəsilə iqtisadi inteqrasiya dərinləşdirilmişdir [10, s. 574]. Hazırda Çin “Bir Kəmər, Bir Yol” təşəbbüsü çərçivəsində Mərkəzi Asiyanı Avropa ilə birləşdirən əsas tranzit platformasına çevirmək niyyətindədir. Bu təşəbbüs təkcə infrastruktur deyil, həm də sənayenin regiona köçürülməsi, logistika mərkəzlərinin qurulması və texnoloji transferi ehtiva edir [6, s. 181].

Lakin bu əməkdaşlıq birtərəfli üstünlük anlamına gəlmir. Mərkəzi Asiyada Çinlə bağlı iqtisadi təhlükəsizlik, yüksək borclanma, strateji aktivlərin Çin şirkətlərinə verilməsi, demoqrafik təzyiq və əmək miqrasiyası ilə bağlı ciddi narahatlıqlar da mövcuddur. Bəzi dairələr Çin dövlətinin regiona dair uzunmüddətli dominantlıq strategiyasını ehtimal edir və Çinin “məsuliyyətli investor” obrazının arxasında daha dərin geosiyasi məqsədlərin dayandığını düşünürlər.

Bununla belə, Mərkəzi Asiya ölkələri üçün Çinlə əməkdaşlıq həm iqtisadi dirçəliş, həm də regional təhlükəsizlik baxımından strateji əhəmiyyət daşıyır. Çinin artan təsiri fonunda region ölkələri Rusiya və Çin arasında balans saxlamağa çalışır, lakin bu balansın qorunması üçün Qərblə – xüsusilə ABŞ və Avropa İttifaqı ilə – münasibətlərin də gücləndirilməsi vacibdir. Əsas çətinlik isə Qərbin bu regiona olan diqqətinin məhdudluğu və davamlı siyasətinin olmamasıdır.

Ümumilikdə, Çinin artan təsiri Mərkəzi Asiyanın yeni geosiyasi kimliyini formalaşdırmaqda mühüm rol oynayır. Həm enerji təhlükəsizliyi, həm infrastruktur, həm də ideoloji neytrallıq baxımından Çinlə sabit münasibətlərin qorunması regionun geosiyasi gələcəyi üçün mühüm əhəmiyyət daşıyır.

## NƏTİCƏ

Məqalədə aparılan təhlillər göstərir ki, Mərkəzi Asiya regionu hazırda mürəkkəb və çoxşaxəli geosiyasi təhlükələrlə üz-üzədir. Əfqanıstandan qaynaqlanan təhlükələr – o cümlədən radikal ideologiyaların yayılması, narkotik qaçaqmalçılığı və xarici döyüşçülərin regiona qayıtması – region ölkələrinin daxili sabitliyini və təhlükəsizliyini ciddi şəkildə sarsıdan amillər kimi çıxış edir. Talibanın yenidən hakimiyyətə gəlişi və İŞİD-in "Xorasan vilayəti" kimi fraksiyaların fəallaşması, Mərkəzi Asiyada dini ekstremizmin güclənməsi, sosial parçalanma və gənclərin radikallaşması baxımından mühüm təhdid yaradır.

Onu da qeyd edək ki, Rusiya və Çin kimi iki regional supergücün təsir uğrunda rəqabəti Mərkəzi Asiyanın geosiyasi manevr imkanlarını məhdudlaşdırmaqda və dövlətlərin xarici siyasətində balans axtarışını daha da çətinləşdirməkdədir. Rusiya regionu öz təsir dairəsi kimi görməkdə davam edir, lakin Ukrayna müharibəsindən sonra zəifləyən nüfuzu və iqtisadi sanksiyaların təsiri Mərkəzi Asiyada Moskvanın imkanlarını məhdudlaşdırmışdır. Bunun əksinə olaraq, Çin tədricən, lakin planlı şəkildə regionda həm iqtisadi, həm də təhlükəsizlik sahəsində nüfuzunu artırmış, xüsusilə "Bir Kəmər, Bir Yol" təşəbbüsü çərçivəsində infrastruktur və enerji layihələri vasitəsilə strateji mövqe qazanmışdır.

Lakin həm Rusiya, həm də Çinlə əməkdaşlıq Mərkəzi Asiya üçün zəruri olduğu qədər də risklidir. Hər iki gücün region üzərində dominantlıq istəyi suverenlik, iqtisadi təhlükəsizlik və daxili siyasi müstəqillik üçün potensial təhdidlər doğurur. Bu səbəbdən region ölkələri yalnız repressiv tədbirlərlə kifayətlənməməli, sosial-iqtisadi islahatlar, inklüziv təhsil siyasətləri və vətəndaş cəmiyyətinin gücləndirilməsi vasitəsilə radikallaşmaya qarşı dayanıqlı müdafiə mexanizmləri formalaşdırmalıdırlar.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Bandey, A. A., & Rather, S. A. (2013). Post-Soviet Central Asia and Russia: The Uneasy Relationship. Asian Journal of Political Science, 21(1), 34–53.*

*2. Burkhanov, A. (2017). Kazakh National Identity and Nation-Building: From Colonial Legacy to Post-Imperial Reality. Nationalities Papers, 45(2), 229–247.*

*3. Cooley, A. (2012). Great Games, Local Rules: The New Great Power Contest in Central Asia. Oxford University Press. 178-190*

*4. Fuller, G. E., & Starr, F. (2018). The Xinjiang Problem. Central Asia-Caucasus Institute. 455 p.*

*5. International Crisis Group (ICG). (2023). Managing Central Asian Returnees: From Syria to Society. Retrieved from https://www.crisisgroup.org*

*6. Laruelle, M. (2017). Russia's Central Asia Policy and the Role of Regional Integration. George Washington University. 154-189 p.*

*7. Pannier, B. (2016). Central Asia's Uneasy Embrace of China. Radio Free Europe/Radio Liberty.*

*8. Peyrouse, S. (2016). China's Economic Presence in Central Asia: A Political Time Bomb?. Asia-Europe Journal, 14(1), 77–94.*

*9. Stone, R. (2012). Damming the Peace Between China and Kazakhstan. Science, 338(6111), 586–587.*

*10. Swanstrom, N. (2005). China and Central Asia: A New Great Game or Traditional Vassal Relations?. Journal of Contemporary China, 14(45), 569–584.*

*11. Voloshin, G. (2018). Central Asia between Russia and the West: A Balance of Interests. European Politics and Society, 19(1), 54–70.*

*12. Zardykhan, Z. (2004). Russians in Kazakhstan: National Identity and Demographic Changes. Asian Ethnicity, 5(1), 61–77.*


## XÜLASƏ


Bu məqalədə Mərkəzi Asiyada təhlükəsizlik təhdidlərinin xarakteri, səbəbləri və regional təsirləri hərtərəfli şəkildə təhlil edilir. Əsas diqqət Əfqanıstandakı qeyri-sabitlik, terrorizm və xarici döyüşçülərin geri dönüşü kimi təhlükələrin Mərkəzi Asiya ölkələrinə yaratdığı real təhdidlərə yönəldilir. Məqalədə Talibanın yenidən güclənməsi, İŞİD-in bölgədəki fəaliyyəti və Qərbin Əfqanıstandan çəkilməsi fonunda Mərkəzi Asiyanın necə təsirləndiyi analiz olunur. Həmçinin, regionda artan radikallaşmanın sosial-iqtisadi və siyasi səbəbləri, reabilitasiya və reinteqrasiya ehtiyacları qeyd olunur. Transsərhəd mütəşəkkil cinayətkarlıq, xüsusilə Əfqanıstandan başlayan və Mərkəzi Asiya üzərindən Avropaya qədər uzanan narkotik ticarəti məsələsi araşdırılır. Məqalədə həmçinin Rusiya və Çinin regionda artan təsiri, onların geosiyasi məqsədləri və Mərkəzi Asiya ölkələrinin balanslaşdırılmış xarici siyasət yürütmək cəhdləri işıqlandırılır. Mərkəzi Asiyanın təhlükəsizliyi üçün regional əməkdaşlıq,

beynəlxalq təşkilatların rolu və Qərblə strateji münasibətlərin əhəmiyyəti xüsusi vurğulanır. Məqalə, Mərkəzi Asiyanın təhlükəsizliyini təmin etmək üçün kompleks, çoxşaxəli və balanslaşdırılmış yanaşmanın zəruriliyini əsaslandırır.

**Açar sözlər:** *Mərkəzi Asiya, təhlükəsizlik təhdidləri, Əfqanıstan, terrorizm, radikallaşma, transsərhəd cinayətkarlıq, Rusiya, Çin, geosiyasət.*

## SECURITY THREATS IN CENTRAL ASIA: REGIONAL CHALLENGES, GEOPOLITICAL IMPACTS, AND STRATEGIC RESPONSES

**Nargiza Jakbarova**
***Baku State University, doctorate***
***jakbarovanargiza77@gmail.com***

**SUMMARY**

This article provides a comprehensive analysis of the nature, causes, and regional implications of security threats in Central Asia. The focus is on the real threats posed to Central Asian countries by threats such as instability in Afghanistan, terrorism, and the return of foreign fighters. The article analyzes how Central Asia is affected by the resurgence of the Taliban, the activities of ISIS in the region, and the withdrawal of the West from Afghanistan. It also highlights the socio-economic and political causes of increasing radicalization in the region, as well as the needs for rehabilitation and reintegration. It examines the issue of cross-border organized crime, especially the drug trade originating in Afghanistan and extending through Central Asia to Europe. The article also highlights the growing influence of Russia and China in the region, their geopolitical goals, and the attempts of Central Asian countries to pursue a balanced foreign policy. Special emphasis is placed on the importance of regional cooperation, the role of international organizations, and strategic relations with the West for the security of Central Asia. The article justifies the need for a comprehensive, multifaceted, and balanced approach to ensuring the security of Central Asia.

**Keywords:** *Central Asia, security threats, Afghanistan, terrorism, radicalization, cross-border crime, Russia, China, geopolitics.*

## УГРОЗЫ БЕЗОПАСНОСТИ В ЦЕНТРАЛЬНОЙ АЗИИ: РЕГИОНАЛЬНЫЕ ВЫЗОВЫ, ГЕОПОЛИТИЧЕСКИЕ ПОСЛЕДСТВИЯ И СТРАТЕГИЧЕСКИЕ ОТВЕТЫ

**Наргиза Джакбарова**
***Бакинский Государственный Университет, Докторская степень***
***jakbarovanargiza77@gmail.com***

**РЕЗЮМЕ**

В статье всесторонне анализируются характер, причины и региональные последствия угроз безопасности в Центральной Азии. Основное внимание уделяется реальным угрозам, которые представляют для стран Центральной Азии такие факторы, как нестабильность в Афганистане, терроризм и возвращение иностранных боевиков. В статье анализируется, как на Центральную Азию влияют возрождение Талибана, деятельность ИГИЛ в регионе и уход Запада из Афганистана. В нем также подчеркиваются социально-экономические и политические причины роста радикализации в регионе, а также потребности в реабилитации и реинтеграции. Расследуется проблема трансграничной организованной преступности, особенно незаконного оборота наркотиков из Афганистана, распространяющегося через Центральную Азию в Европу. В статье также освещается растущее влияние России и Китая в регионе, их геополитические цели и попытки стран Центральной Азии проводить сбалансированную внешнюю политику. Особо подчеркивается важность регионального сотрудничества, роли международных организаций и стратегических отношений с Западом для безопасности Центральной Азии. В статье обосновывается необходимость комплексного, многогранного и сбалансированного подхода к обеспечению безопасности Центральной Азии.

**Ключевые слова:** *Центральная Азия, угрозы безопасности, Афганистан, терроризм, радикализация, трансграничная преступность, Россия, Китай, геополитика.*